**FİLOLOGİYA**

UOT 82

# ELDAR İSMAYIL YARADICILIĞINDA GÖYÇƏ OBRAZI

**Şəfahət ƏLİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 20 yanvar 2023; çapa qəbul edilmişdir: 28 fevral 2023; online-da çap edilmişdir: 30 mart 2023.
Received: 20th of January, 2023; accepted: 28th of February, 2023; published online: 30th of March, 2023.

**Açar sözlər**: *Göyçə, ulu, Eldar İsmayıl, el, adət-ənənə, Ağbulaq, ədəbi mühit*

## Giriş

Müasir poeziyada köçkün və işğalın ortaya qoyduğu fəsadların Qərbi azərbaycanlı qaçqınların poetik örnəkləri əsasında sistemli araşdırılması istər bədii, istərsə də siyasi baxımdan tarixi əhəmiyyət kəsb edir. Tədqiqat üçün aktual olan bu mövzu təkcə poeziya səviyyəsində deyil, nəsr, dramaturgiya, publisistika timsalında da problemi ədəbi-nəzəri fikrin qarşısına qoyur. Böyük bir mədəniyyətin yaradıcısı olan bir toplumun son yüzillikdə qarşılaşdıqları köç və işğal, humanitar fəlakətlər daha çox bəşəri məzmunu ilə diqqət önünə gəlir. Məhz bu nöqteyi-nəzərdən əsərləri ilə qədim oğuz adət-ənənələrini təbliğində xüsusi yeri tutan, müasir Azərbaycan ədəbiyyatında qaçqınlıq və köçürülmə mövzusunda müxtəlif səpkili əsərləri ilə tanınan Eldar İsmayıl yaradıcılığı siyasi gündəmin, eyni zamanda ədəbi mühitin ən çox müzakirə olunan sahəsidir. Göyçə ədəbi mühitinin nümayəndəsi kimi özünü ifadə etmiş Eldar İsmayılın yaradıcılığı tarixi-siyasi baxımdan Qərbi Azərbaycan timsalında köç, yurd həsrəti, işğal və erməni vəhşiliyini təbii mövzu olaraq işləməyi zərurətə çevirmişdir.

Mühitinin zənginliyindən bəhrələnən şairin əsərlərində və publisistik məqalələrində soy-kökə bağlanan Göyçə mifi, sözün və sazın beşiyi olan məkanın hər daşı, hər qayası, adət ənənəsi, öz dili ilə ahəngi ilə səsləşir. Onun əsərlərində mifoloji düşüncə, bəşər sivilizasiyasının ilkin mərhələləri dəlillər, təsəvvür, inam və etiqadlar davamlı olaraq yaşanır. Eldar İsmayıl yaradıcılığında vətənpərvərlik etüdləri sadə dildə səslənir ki, bu dilin zənginliyini və qədimliyini bir daha faklaşdırır.

*Ulu Göyçə, Dərəçiçək qonağı,*
*Gələn kimi tez çatardıq ocağı...*
*Bəyənməzdik nə kababı, qaymağı,*
*Anam qalxıb un götürüb ələrdi...*
*Qonaq üçün dadlı xəngəl elərdi.* [2, 63]

XX əsr Azərbaycan mədəniyyətinin, Azərbaycan coğrafiyasının, Azərbaycan yaşamının ən böyük itkilərindən biri də ulu Göyçədir. Tarixi şəxsiyyətləri, oğuz adət-ənənələrini bütöv varlığını özündə yaşadan bu diyar təəssüf ki, zaman-zaman mənfur düşmənlərin

* *Bakı Avrasiya Universiteti*
e-mail: yeniavrasiya@gmail.com

tapdağına çevirilmiş, oğuz elinin əhli öz yurd-yuvalarından deportasiya edilmişdir. *1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanda yaşayan azərbaycanlı əhali doğma Oğuz elindən tamamilə qovulmuş və didərgin salınmışdır. Onların sayı haqqında müxtəlif rəqəmlər gətirilir. Lakin apardığımız hesablamalar göstərir ki, 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların sayı 250 min nəfərdən çox ola bilərdi.* [3] Eldar İsmayılda bu köçürülmənin canlı şahidi kimi öz dədə yurdu Ağbulaqdan Bakıya köçmüşdür.

**Azərbaycan poeziyasında vətənpərvərlik mövzusu**

Azərbaycan poeziyasında vətənpərvərlik mövzusu bir çox şairlərin yaradıcılığında öz əksini tapıb. Qərbi Azərbaycanda iki yüz ildə baş verənlərin ümumi mənzərəsi, ictimai-siyasi, sosial-mədəni sferada baş verənlərin təqdim-təfsilatı baxımından poeziya doğrudan da qeyri-adi imkanlılıqla özünü göstərir. Məmmədhüseyn Şəhriyar, Məmməd Araz və Eldar İsmayılın yaradıcılığındakı vətənpərvərlik ruhu, xalqın siyasi məsuliyyəti tam şəkildə ortaya qoyur. Məmməd Araz poeziyasında Cənubi Azərbaycan həsrəti siyasi baxışı əsas yeri tutursa da, Şəhriyarın yaradıcılığında əksinə Şimali Azərbaycan və Bütöv Azərbaycan reallığı mövzunu qaçılmaz edir. Eldar İsmayıl isə Qərbi Azərbaycan, Göyçə mövzusunda ümumi toplumun, rus və fars şovinizminin Azərbaycanı işğal edərək ikiyə bölməsindən bəhs edir, bir-birindən daha dəhşətli hadisələrin yaşanması, köç, yurd həsrəti, işğal, erməni vəhşilikləri və s. kimi acıları faklaşdırır. Onun "Sabaha məktub", "Mən kiməm", "Türkün xilaskarı, "Ulu Göyçə" kimi poemalarının süjet xətti sistemli olaraq Göyçə obrazına, ulu oğuz yurdunun yaşam tərzinə yüklənmişdir. Poemalarında şair qaçqınlıq həyatının acılarını qələmə almaqla yanaşı, vətən eşqilə alışıb yanan bir toplumun, düşmənə qəzəbini, zəmanəyə küskünlüyü açıq müstəvidə diqqət önünə gətirir. Onun misralarında tarixi yazanlara, sapı üzümüzdən olan baltalara nifrəti tükənməzdi...

*Gah müsəlman,*
*Gah tatara bağlayıbsan,*
*Azərbaycanlı,*
*Gah türk olmuşam,*
*Mən bu qədər ad altında,*
*Öz-özümə yük olmuşam.*
*Öz adımı,*
*Soyadımı yanılmışam.*
*Tarixİmi kimlər yazıb.*

Eldar İsmayıl bir qaçqın şair kimi XX əsr Azərbaycanın tarixi taleyində acılarla, fəlakətlərlə, rus imperiya məfkurəsindən gələn dəhşətləri qələmə alır. Ermənilər vasitəsilə yeridilən siyasət dəst-xətti, Azərbaycanın tarixi torpaqları hesabına sovetlər imperiyası ermənilərə respublika yaratmaq kimi bir reallıqla barışa bilmir və əsərlərində milli kimlik amilini ön xəttə daşıyır.

*Millətini,*
*Soykökünü ayrıd edə bilməyənin ,*
*Birliyidə ola bilməz,*
*Birliyi olmayanın*
*Diriliyi də ola bilməz.* [4]

Şair "Sabaha məktub" poemasında ustad Məmməd Arazın "Qalx ayağa, Azərbaycan" şeirinə, onun dəst-xəttinə daha yaxın ruhda misralarını söyləyir. Azərbaycan ədəbiyyatında bu üslubda Məmmədhüseyn Şəhriyar və Məmməd Arazdan sonra Eldar İsmayıl yaradıcılığında millət, soykök, türkçülük daha qabarıq şəkildə özünü göstərir.

Bütün bunların bariz nümunəsi kimi Eldar İsmayılın "Ulu Göyçə" poeması, üslub xəttinə görə tarixini, mədəni irsini, keçmişinə sahib çıxmağı aşılayan, bədii ədəbiyyatda qoruyan söz zənginliyi ilə ön xəttə çıxır. Şair poemada sözün qüdrətilə Göyçənin rəsmini çəkmişdir. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin ön söz yazdığı bu poemada ***"Göyçəni oymaq-oymaq gəzib gördüyünü şerə düzən şair onun hər daşında, hər müqəddəs qarışında ana təbiətin tarixində, ana vətənin və elin taleyində bir hikmət oxuyub, hər kiçik lövhəsindən rəssam fırçası ilə şeir naxışı toxuyub"*** demişdir. [5]

Poemada Göyçə elinin həyat tərzi, adət-ənənələri, insanların xarakteri və taleyi ana dilin saflığı, poetik əzəməti möhtəşəm bir üslubla ifadə olunmuşdur. "Ulu Göyçə" poemasında şairin uşaqlıq yaddaşından süzülüb gələn qocaman bir tarix yazılsa da, ümumilikdə qüdrətli, böyüklüyünə görə isə bütöv vətən haqqında dastan kimi qavranılır. Eldar İsmayıl müasir oxucuya qədim Göyçənin toponimlərini, adət ənənələrini yaddaşlara qaytarmaqla tariximizə, soykökümüzə sahib çıxmağı tövsiyə edir. Erməni saxtakarlığının qarşısında dayanan bu kimi əsərlər aktuallığı ilə mühüm məzmun daşıyır. "Bütöv Azərbaycan olmalıyam mən", "Səttar oğlu", "Xatırla məni"," Türkün xilaskarı", "Zaman məni anlamadı", "Cahan ömrü", "Zülmətdə parlayan qılınc", "Hazır ol qisasa, hazır ol xalqım", "Qaldır türkün bayrağını" (türk dilində), "Ulu Göyçə de yatanlar ayılsın", "Vətənimdir Azərbaycan" və.s kimi əsərlərdə vətən, el, oba Azərbaycanın bir mədəniyyət ocağı olmasını zəruriləşdirir.

"Ulu Göyçə" poeması isə bu qəbilədən olmaqla ustad şair Şəhriyarın ana dilinə sadiqliyi ilə səlis ləhcədə qələmə alınıb. Poemada Göyçənin, bütövlükdə Qərbi Azərbaycanın tarixi dastanı canlanır.

*Ulu Göyçə, Heydərbaba hardadı?*
*Məhəbbəti, sədaqəti candadı,*
*Bu həsrətin giziltisi qandadı...*
*Ayrılığın fərağından dad elə,*
*Gəl bu yerdə Şəhriyarı yad elə!*
*Ulu Göyçə, Şəhriyara saz göndər,*
*Salamımı bir məktuba yaz göndər,*
*Şah dağından Savalana buz göndər,*
*Ürəklərdə bir istilik, sərinlik*
*Məhəbbətdə dəryalarca dərinlik...*

Şair "Ulu Göyçə"nin dastanını yazarkən hər incəliyi nəzərə alaraq qədim diyarın yazını, baharını, qışını canladırıb. Vətənin obrazlaşması Qərbi Azərbaycan poeziyası timsalında müxtəlifliklərlə, mühitin qaynarlığı və yurd sevgisi timsalında olanlarla səciyyəvilik qazanır. Regionun əsrarəngiz təbiəti, zəngin elat həyat tərzi, yurdsalma mədəniyyəti, toplumun yaşam fəlsəfəsi, qəhrəmanlıq mücadiləsi, ayrı-ayrı coğrafi ərazilər səviyyəsində baş verən hadisə və əhvalatların mövzuya çevrilməsi və topluma ünvanlanan çağırışlar bütün spektrləri ilə diqqət önünə gəlir:

*Ulu Göyçə. qışın özgə novrağı,*
*Tufan qopar, boran bağlar ovlağı...*
*Bəyaz örtük bələyəndə torpağı,*
*Xizək alıb qar üstünə çıxardıq!*

*Kənddən çölə üzüqoylu axardıq!* [6]

Eldarın tərənnümündə kənd mənzərəsinin bu cür bədii təsviri yad deyil. Göyçənin hər halını, uşaqlıq xatirələri ilə dolu şirinli-acılı günlərini sadalayan şair, o günlərin həsrətini, o günlərin qiymətini, o yerlərin şöhrətini təkrarsız yaradıb və didərgin salınmış toplumun formalaşmış təsəvvürünü poeziyada təqdimini verir. Göyçə söz sənətinin içində böyüyən şairin sinəsində Göyçə ləhcəsi, "Göycə bədii söz" xəzinəsi poemaya ayrıca millilik qatıb.

*Uşaq vaxtı pəyəmiz çox dar idi,*
*Onda bizim bir qoçumuz var idi,*
*Heç bilmirəm nə suçumuz var idi,*
*Vurağan qoç "qəsdimizə" durardı!*
*Görən kimi qəfil bizi vurardı!*

"Ulu Göyçə" poemasının digər özəlliyi isə qədim oğuz elinin yer və yurd adlarının öz axarı ilə yazılması və bu adların poetik şəkildə gələcək nəslə ötürülməsi missiyasıdır. Poemada yer adları, ziyarətgahlar, inanc yerləri tarixi qaynaq kimi də əvəzsizdir.

*Ulu Göyçə "Kaftar dağ" da ot bitməz,*
*Bahar gələr qulağına səs yetməz,*
*Ceyran keçməz. başı üstən quş ötməz,*
*Bəlkə deyim, açmır məni bu halət,*
*Qorxdum küsə onda "Qızıl ziyarət".*

"Quru selav", "Çal təpə", "Quş bazarı", "At naltökən", "Nal təpə", "Səlim gədiyi", "Çinli bulaq", "Ağmanqal", "Şad bulaq", "Qanlı göl", "Kötüklü", "Bərə təpəsi", "Bəy gölü", "Qırmızı dağ" və s. kimi yer adları poemada təsadüfən yazılmayıb. Misralarda fəlsəfə və real həyat təsvirləri var. Beləliklə, şair poemada dörd əsas məsələyə paralel olaraq toxunur. Bunlar hansılardır və bunların mahiyyəti nədir?

- Qədim Göyçə, tarixilik, adət-ənənə, yaşam tərzi, təbiət, qəhrəmanlıq və nəhayət, sabaha çağırış;
- Şair bir dairə içərisində, bir fikir, bir xəyal dairəsi içində Göyçənin bədii süjetini, kompozisiyasını qurmuşdur;
- Ulu Göyçə poemasında birinci təsvir, yəni Göyçənin təsvirindən başlanan və son nöqtəsini gələcək qoyacağı süjet xətti var;
- Poemada ədəbi növlərə məxsusluğu ilə seçilən keyfiyyətlər, sənətkarlıq komponentləri cəmləşmişdir;

Qərbi Azərbaycan poeziya mühitinin zənginliyi təkcə məzmun və mövzu müxtəlifləri ilə deyil, həm də janr səciyyəsinin özünəməxsusluqları ilə seçilir. Eldar İsmayıl bu poemada həm lirik, həm də publisistik bacarığından ustalıqla istifadə edib. Poemanı "janrlar" "janrı" adlandıran Yustinas Martsinkyavicyus qeyd edirdi ki, poema ədəbiyyatın bütün janrların nailiyyətlərindən və kəşflərindən istifadə edə bilər və etməlidir. O yazırdı: *"Xarakter yaradanda poema nəsrin təcrübəsindən, lirikanın ilahi imkanlarından, dramın daim hərəkətdə olan başlanğıcından istifadə edə bilər, hətta ehtiraslı publisistika da poemaya ögey element deyil. Poema üçün tarixi hadisələr, cəmiyyət və onun ayrı –ayrı sinifləri yox, həmdə ictimai fikirlər və ideyalar tarixi vacibdir".* [7]

Prof. Y.Qarayev Qərbi Azərbaycanın Göyçə mahalından köçürülməni təsvir edərkən yazırdı: *"hamı Göyçəni tərk etdi. Amma bir dağlar, bir də göylər Göyçənin keşiyini çəkməkdə indi də davam edir. Mən onların sırasına o göylərin altında, o dağların*

*üstündə ərsəyə çatmış, Göyçəyə həsr olunmuş qüssəli, fəryadlı bir poeziyanı da artırmaq istəyirəm. Mənə elə gəlir ki, bir Cabbarın rəsmləri səbəb oldu ki, rəssamlıq Göyçəni xatırlasın, bir də Eldarın şeirləri səbəb oldu ki, poeziya Göyçəyə öz sədaqətini qoruyub saxlasın. Zənnimcə, Göyçəni qurtarmaq baxımından da ən böyük iş yenə poeziyanın üzərinə düşəcək. Göyçəyə qayıdan yol folklordan keçəcək. Göyçənin fütuhatı, kosmosun, səmanın fütuhatı, İkar haqqında əfsanə folklordan başladığı kimi, mənə elə gəlir ki, Göyçənin türk dünyası tərəfindən yenidən fütuhatı Göyçə folkloru ilə, Göyçəyə həsr olunan böyük poeziya ilə həyata keçəcəkdir"* [8, s. 14]. Görkəmli nəzəriyyəçi, mütəfəkkir Y.Qarayevin Göyçə timsalında bu dedikləri Qərbi Azərbaycan səviyyəsində pozulmuş etnokosmosu bərpaya və bu sistemin tarixi yaddaş kodlarından olan bədii düşüncənin bütün komponentləri ilə paradiqmatik canlandırmasını zəruri hesab edir. Pəmbək, Sərdarabad, Zəngəzur, Şəmsəddin, Qaraqoyunlu, Dağborçalı, Şörəyöl, Zəngibasar, Dərəçiçək, Gərnibasar, Vedibasar, Sürməli, Ağbaba, Dərələyəz kimi dünyanın o başına, ilkinliyə bağlanan türk elləri pozulmuş nizamın tarixi-fəlsəfi, bədii-estetik dərki və ifadəliliyi baxımından Qərbi Azərbaycanlı qaçqın şairlərin poeziyasında daha təfsilatlı və yüksək sənətkarlıq nümunələri ilə özünə yer alır.

"Ulu Göyçə " poemasında bu vacib elementlərindən ustalıqla istifadə edilib. Şair poemada kulminasiya xəttini sonda vətənpərvər çağırışlarla bitirir:

*Qırx milyonluq oğuz türkü atəş sən,*
*Düşmən üçün qeyzləş sən, küləş sən.*
*Bir igidin nərəsinə birləş sən,*
*Bircə ovuc Əhriməni tap da keç,*
*İblislərin dizin yerə qatda keç!*

**Nəticə**

"Ulu Göyçə" poemasında tarixin ibrət dərsləri, insan yaşamının mənəvi ahəng və təzadları, cəmiyyət və təbiət təsvirləri süjetli və obrazlı şəkildə öz əksini tapmışdır. Şair poemada milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, itirilən mədəni abidələrin, eləcə də milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün tarixi əsər yaratmışdır. Ümumiyyətlə, Eldar İsmayıl yaradıcılığında bütövlükdə Göyçə itkisinin ağrı-acılarını milli problem, türk dünyasının mədəniyyət beşiyinin itkisi kimi yaratmışdır. O istər publisistik əsərlərində, istərsə də nəsr əsərlərində Göyçə itkisi ilə barışmamağı məram və məqsəd olaraq ortaya qoyur. Eldar İsmayıl köçkünlük tarixindən bu yana Göyçə həsrəti ilə alışıb yanan şeirləri ilə "Mən burda qəribəm yurd orda qərib" ifadəsi ilə qaçqınlıq taleyinin haçansa sona çatacağını, odlu misraları ilə vətəninə, elinə, obasına dönəcəyini hər zaman aktual saxlamışdır.

## ƏDƏBİYYAT


1. İsmayıl E. Zaman məni anlamadı. Bakı: Səda, 2008, 352 s.
2. İsmayıl E. Ulu Göyçə de yatanlar ayılsın, Bakı: Nurlan, 2011, 200 s.
3. Rəhimoğlu H. Silinməz adlar, silinməz yaralar, Bakı: Azərnəşr, 1997, 260 s.
4. İsmayıl E. Mən burda qəribəm, yurd orda qərib, Bakı: Səda, 1998, 268 s.
5. Məmmədli A. Bir şair yol gedir. Bakı: Nurlan, 2002, 190 s.
6. İsmayıl E. Ulu Göyçədə yatanlar ayılsın. Bakı: Nurlan, 2011, 200 s.
7. Rafiq Ə. XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri. Bakı, 2011, 180s
8. Qarayev Y. Bu poeziya imtahanına yüksək qiymət vermək olar // A.Məmmədli. Bir şair yol gedir. Bakı: Nurlan, 2002, s. 14-16.

***Summary***

***Shafahat Aliyev***


***The "Goycha" Image in Eldar Ismaıl's Work***

As Goyche literary environment has greatly influenced Eldar Ismayil's literary creativity, the theme "Goyche" is considered to be the main line of Eldar Ismayil's poetry.

The poet, shaken after the migration of 1988, wrote poems burning with longing for Goyche, and left literary works on the theme of migration and occupation.

In his poems, such as "Great Goyche", "Allah's bless", "Children of Oguz land", "I have as much pain as the mountain of Aghri", "Letter to tomorrow", "Let people sleeping in Great Goyche wake up", "Time did not understand me", "Goyche's revenge remains" etc. every part of the land and traditions of the Great Goyche district have been transferred to memory as a living image.

In the article, the poem "Great Goyche" written about Goyche district reflects the way of expression, the life history of the ancient Oguz land based on traditions - the history of the homeland, and the historical pains of our compatriots who were expelled from the ancient Oghuz lands.


***Key words:*** *Ulu Goyche, ancient, Eldar Ismail, tradition, Agbulag, literary environment*

***Резюме***

***Шафахат Алиев***


***Образ Гойче в творчестве Эльдара Исмаила***

Тема Гойче является основной темой в творчестве Эльдара Исмаила. Его поэзия основывалась на литературной среде Гейче. Поэт, потрясенный переселением1988 года, оставил нам серьезные произведения на тему изгнания и оккупации, создав стихи, поэмы пылающие тоской по Гойче. «Улу Гойче», «Упование Аллаха», «Дети Огузского края», «Боль величиной с гору», «Письмо в завтра», «Пусть проснутся заснувшие в старом Гейче», «Время меня не поняло», «Осталась месть Гейче» и в др. произведениях как живой образ запечатлена каждая пядь земли махале Гейче, традиции и обычаи. В поэме «Улу Гойче», посвященная области Гойче, нашли свое отражение выражение, стиль речи, история жизни – история родины, опирающаяся на обычаи и традиции древнего Огузского края, а в целом, исторические беды наших соотечественников, изгнанных с древнего огузского края.


***Ключевые слова****: Улу Гойче, древний, Эльдар Исмаил, традиция, Агбулаг, литературная среда*

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.